*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 2 (592)

30 yanvar 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# Azad olunmuş ərazilərdə inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsi yaşanacaq

**"Azərbaycan" qəzetinin müxbiri Rəşad Cəfərlinin müəllifi olduğu "Azad olunmuş ərazilərdə inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsi yaşanacaq" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**




### Zəfərimizin müəllifi olan İlham Əliyev Qarabağ bölgəsinin yüksəlişini də təmin edəcək

Ötən ilin payızında torpaqlarımızın işğaldan azad edilməsi ilə bütün dünya Azərbaycanın döyüş meydanındakı hərbi qələbəsinə şahidlik etdi. Ali Baş Komandan İlham Əliyevin dəmir yumruğu cəmi 44 gün müddətində Ermənistana elə bir zərbə vurdu ki, tarix boyu işğalçılar bunu unuda bilməyəcəklər. Bu zəfərimizə dostlarımız sevindi, bədxahların və erməni təəssübkeşlərinin isə bağrı yarıldı.

### Qələbə erməni barbarlığını dünyaya olduğu kimi çatdırmağa imkan verdi

İlham Əliyev qələbəmizi sərkərdə qətiyyəti ilə təmin etdi, eyni zamanda, Dağlıq Qarabağ məsələsi ətrafında yeni tarixi şərait yaratdı. Bu şərait ondan ibarətdir ki, artıq Dağlıq Qarabağ problemi yoxdur. Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərində ikinci erməni dövləti qurmaq iddiasına birdəfəlik son qoyuldu. Dağlıq Qarabağdakı ermənilərin isə Azərbaycan dövlətinin qanunları ilə yaşamaqdan başqa yolları yoxdur. Beləliklə, həm Azərbaycan dövləti özünün ərazi bütövlüyünü bərpa etdi, həm də Dağlıq Qarabağ problemini özünün milli maraqları çərçivəsində yoluna qoydu.

Torpaqlarımızın işğaldan azad olunmasından sonra dünya başqa bir reallığa da şahidlik etdi. Belə ki, şəhər və kəndlərimiz azad olunduqca əyani şəkildə aydın oldu ki, işğalçı yaşayış məntəqələrimizi daş daş üstə qoymayıb. Əslində, Ermənistanın işğal etdiyi ərazilərimizi viran qoyması əvvəldən də məlum idi. Sadəcə, həmin ərazilər düşmənin nəzarətində olduğundan bununla bağlı faktları dünyaya çatdırmaq mümkün deyildi. Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Ağdamın işğaldan azad olunması erməni vandallığını olduğu kimi dünyaya çatdırmağa imkan verdi. Cəbrayıl, Füzuli, Ağdam şəhərlərində, bu rayonların kənd və qəsəbələrində bir yaşayış binası, bir ev belə salamat qalmayıb. Erməni vandalları binaları daşlarına qədər söküb, şəhər və kəndləri xaraba qoyublar.

Düşmən milli-mədəni, tarixi və dini abidələrimizə də qənim kəsilib, dağıda bildiyini dağıdıb, talaya bildiyini talayıb. O cümlədən, yeraltı və yerüstü sərvətlərimizi 30 il ərzində qanunsuz şəkildə istismar edib və oğurlayıblar. İşğal altında olan ərazilərimizin gözəl təbiəti də erməni xislətinin qurbanı olub, meşələr, qiymətli ağac növləri kəsilib, tarixi orta əsrlərə qədər uzanan ağaclar məhv edilib.

Bəli, müharibə həm də dağıntı deməkdir. Amma Dağlıq Qarabağ savaşında dağıntıların yeganə müəllifləri erməni işğalçıları oldular. Dağlıq Qarabağ Azərbaycanın tarixi torpaqlarıdır və biz heç vaxt bu ərazini dağıda və ya yandıra bilməzdik. Hətta Şuşanın işğaldan azad olunması əməliyyatında Azərbaycan Ordusu şəhərə maddi ziyan dəyməməsi üçün bütün imkanları səfərbər etdi, hücum zamanı şəhəri ağır hərbi texnikadan, toplardan atəşə tutmadı. Çünki biz Şuşanı dağıda bilməzdik.

Ulu tarixin sübuta yetirdiyi başqa məsələlər də var. Belə ki, tarix boyu müharibə zamanı şəhərləri dağıdanlar, vandallığa yol verənlər, mədəniyyətə qənim kəsilənlər həmişə mədəni şüur səviyyəsi aşağı olan xalqlar olublar. Qədim romalılar onlara "barbar" deyirdilər, hansı ki, onlar Romanı dağıdıb yandırmışdılar. Bu mənada erməni işğalçıları müasir dövrümüzün barbarlarıdır.

### Böyük qayıdış başlayıb

Qarabağın dirçəlişi və işğaldan azad olunmuş ərazilərimizə Böyük Qayıdış isə çoxdan başlayıb. Belə ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasının təməli hələ bir neçə il əvvəl Cəbrayılın Cocuq Mərcanlı kəndində yenidən qurulması ilə qoyulub. Hələ o zaman bu kiçik kəndin timsalında xalqımız gördü ki, Prezident İlham Əliyev tezliklə bütün torpaqlarımızı işğaldan azad edəcək və həm də onları yenidən dirçəldəcək. Hər birimiz hələ o zaman İlham Əliyevin qələbə və quruculuq əzminin, qətiyyətinin şahidi olmuşduq.

İndi isə bütün azad olunmuş şəhər və rayonlar dirçəliş yolundadır. Hələ müharibənin davam etdiyi günlərdən İlham Əliyevin göstəriş və tapşırıqları ilə azad olunmuş ərazilərdə kommunikasiyaların bərpasına başlanılıb. 2020-ci ilin yekunlarına həsr olunmuş və videoformatda keçirilən müşavirədə yekun nitqini bu mövzu ilə tamamlayan Prezident İlham Əliyev Qarabağ bölgəsində cənnət yaradılacağını bəyan etdi: "Müharibə cəmi iki aya yaxındır ki, başa çatıb. Amma görün, nə qədər böyük işlər görülüb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam".

### Dünya xalqımızın quruculuq əzminin şahidi olacaq

Yanvarın 4-də isə Prezident İlham Əliyev "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında Fərman imzalayıb. Fərmanda qeyd olunur ki, otuz ilə yaxın bir müddət ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimizin yenidən həyata qaytarılması ölkənin siyasi-iqtisadi suverenliyinin gücləndirilməsinin mühüm dayaqlarından biri olacaq: "Azərbaycan iqtisadiyyatının tərkib hissəsinə çevrilməsi məqsədilə işğaldan azad edilmiş bölgələrdə məskunlaşma, layiqli yaşayış və iqtisadi fəallıq təmin ediləcək, bu ərazilərdə həyata keçiriləcək quruculuq-bərpa işləri ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarını daha da möhkəmləndirməklə yanaşı, Azərbaycanın yeni inkişaf prosesində mühüm mərhələ olacaqdır".

Hazırda işğaldan azad olunmuş ərazilərdə kommunikasiyaların bərpası istiqamətində çoxsaylı layihə icra olunur. Yollar çəkilir, enerji ilə təminat məsələləri yoluna qoyulur. Bunlar ilkin addımlardır. Böyük qayıdış isə kompleks tədbirlər sistemindən ibarətdir. Qarabağ bölgəsi Azərbaycanın iqtisadiyyatına böyük töhfələr verəcək. Bütövlükdə, işğaldan azad olunmuş ərazilərimizdə inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsi yaşanacaq.

# İCTİMAİ ASAYİŞ ETİBARLI QORUNUR

## *Daxili işlər naziri qarşıda duran vəzifələrlə bağlı tapşırıq və tövsiyələrini verib*

**Yanvarın 18-də Daxili İşlər Nazirliyində 2020-ci ildə cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini sahəsində fəaliyyətin yekunlarına və cari ildə qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib. Ölkədəki epidemik vəziyyətlə əlaqədar Kollegiya videokonfrans formatında baş tutub.**





Tədbiri giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov qeyd edib ki, ötən il özünün bütün çətinlik və problemlərinə baxmayaraq, ölkəmiz üçün ən uğurlu illərdən biri olub. Uzun illər işğal altında qalan torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz tərəfindən düşməndən azad edilib, tarixi ədalət bərpa olunub. Bu döyüşlərdə Daxili Qoşunların yüzlərlə hərbi qulluqçusu da iştirak edərək cəsarət və igidlik nümunələri göstərib, onlardan 65 nəfəri şəhid olub, 347 nəfəri yaralanıb.

Nazirin təklifi ilə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

General-polkovnik Vilayət Eyvazov sonra hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, 2020-ci ildə, ümumilikdə, 26.004 cinayət qeydə alınıb ki, bu cinayətlərin 86,7 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil edib. Ölkəmizdə cinayətkarlığa qarşı mübarizə, asayişin və təhlükəsizliyin qorunması sahəsində fəaliyyət digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə davam etdirilib, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 8 fakt azalaraq 257 olub.

O da qeyd olunub ki, 2019-cu illə müqayisədə ötən il qəsdən sağlamlığa az ağır zərərvurma, mülkiyyət əleyhinə olan cinayətlər, o cümlədən, oğurluq, soyğunçuluq, quldurluq, dələduzluq, avtonəqliyyat vasitələrinin qaçırılması kimi cinayətlər azalıb. Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri ilə cinayətlərin 85,5 faizinin, eləcə də prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 310 cinayətin açılması təmin edilib.

Məruzəçi "102" Xidmətinə daxil olan məlumatlar üzrə görülmüş operativ cavab tədbirləri ilə 2.288 cinayətin "isti izlər"lə, eləcə də "Təhlükəsiz şəhər" sisteminin imkanları ilə 477 cinayətin açıldığını, axtarışda olan 94 avtomobilin saxlanıldığını vurğulayıb.

Nazir qeyd edib ki, hesabat ilində həyata keçirilən operativ tədbirlər nəticəsində 254 kriminal qrup zərərsizləşdirilib, odlu silah saxlayan və daşıyan 161 şəxs cinayət məsuliyyətinə cəlb edilib. Qanunsuz dövriyyədən 1 ton 873 kiloqram narkotik vasitə çıxarılıb, yabanı halda yetişən 153 tondan çox narkotik xassəli bitki aşkarlanaraq məhv edilib.

Məruzə ətrafında çıxış edənlər hesabat dövründə görülmüş işlərdən, əldə olunmuş nəticələrdən, eyni zamanda, fəaliyyətdə yol verilən nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı planlaşdırılan konkret tədbirlərdən danışıblar.

İclasa yekun vuran daxili işlər naziri Vilayət Eyvazov 2020-ci ildə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı ərazi orqanlarında ümumi işə mənfi təsir göstərən halların mövcudluğunu nəzərə çatdırıb, tədbir iştirakçılarının diqqətini onların hərtərəfli təhlilinə, aradan qaldırılması yollarına, həmçinin, qarşıda duran vəzifələrə yönəldərək konkret tapşırıq və tövsiyələrini verib.

Sonda general-polkovnik V.Eyvazov nazirlik sistemində maddi-texniki təminatın, xidmət şəraitinin daha da yaxşılaşdırılması, fəaliyyətin təkmilləşdirilməsi, sosial müdafiə işinin gücləndirilməsi üçün dövlət tərəfindən hərtərəfli köməklik göstərildiyini məmnunluqla qeyd edərək, bu ali diqqətə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əmin edib ki, qanunla müəyyən olunmuş vəzifələr bundan sonra da yüksək səviyyədə yerinə yetiriləcəkdir.

**DİN-in Mətbuat xidməti**

2-1_Layout 1 29.01.2021 10:59 Page 1



# DAXİLİ QOŞUNLARIN HƏRBİ ŞURASININ VİDEOKONFRANS FORMATINDA İCLASI KEÇİRİLİB

**Yanvarın 18-də Daxili Qoşunların Baş İdarəsində videokonfrans formatında "2020-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunları və qarşıda duran vəzifələr haqqında" Hərbi Şuranın iclası keçirilib.**




İclasda giriş sözü ilə çıxış edən Hərbi Şuranın sədri, daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov diqqətə çatdırıb ki, ötən dövr ərzində xidməti-döyüş fəaliyyətinə yekun vurularkən ilk növbədə Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandan, Respublika Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında erməni işğalçılarına qarşı 44 günlük Vətən müharibəsində qələbəsi vurğulanmalıdır: "Bu məğlubiyyət nəticəsində Ermənistan məcbur olub kapitulyasiya aktına imza atmış və düşmən ölkənin 30 il davam edən işğalçılıq siyasətinə son qoyulmuşdur. Bu zəfərin qazanılmasında Daxili İşlər Nazirliyinin Daxili Qoşunları da üzərinə düşən şərəfli missiyanı yerinə yetirmiş, Vətən uğrunda şəhidlər vermişdir. Şəhidlərimizə Allah rəhmət eləsin, qazilərimizə isə tez bir zamanda şəfa diləyirik. Müharibədən sonra işğaldan azad olunmuş torpaqlarda aidiyyəti vəzifələrin yerinə yetirilməsi müəyyən edilmiş və Daxili Qoşunların şəxsi heyəti polis əməkdaşları ilə birgə hal-hazırda bu istiqamətdə fəaliyyəti davam etdirir".

Bundan əlavə, dünyada tüğyan edən koronavirus pandemiyası ilə əlaqədar ölkəmizdə elan edilmiş xüsusi karantin rejimində polis əməkdaşları ilə birgə qarşıya qoyulmuş tapşırıqların layiqincə yerinə yetirildiyi və qoşunların bu istiqamətdəki fəaliyyətinin qənaətbəxş olması diqqətə çatdırılıb.

2020-ci ilin xidməti-döyüş fəaliyyətinin yekunları barədə daxili qoşunlar komandanının 1-ci müavini - qərargah rəisi general-mayor Tofiq Hüseynov məruzə edib.

Qeyd olunub ki, 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr endirməklə əzəli torpaqlarımızı azad edib, tarixi qələbə qazanıb. Bu tarixi missiyanın yerinə yetirilməsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının da öz rolu olub: "Vətən uğrunda qoşunların şəxsi heyətindən 65 nəfər şəhid olmuş, 347 nəfər hərbi qulluqçu isə yaralanıb və xəsarət alıb. Qürur hissi ilə vurğulamaq istərdim ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə, habelə hərbi qulluq vəzifəsini icra edərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə qoşunların 1377 nəfər şəxsi heyəti müxtəlif təsnifatlı orden və medallarla mükafatlandırılıb".

Əlavə olaraq qeyd olunub ki, cari il ərzində qarşıya qoyulmuş tapşırıqlar və müəyyən edilmiş vəzifələr tam həcmdə yerinə yetirilib. Hərbi vəziyyətin hüquqi və pandemiya ilə əlaqədar karantin rejimlərinin, o cümlədən, bir sıra mühüm dövlət və digər tədbirlərdə Daxili Qoşunların şəxsi heyəti polis əməkdaşları ilə birlikdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində fəal iştirak edib, müəyyən edilmiş tapşırıqlar layiqincə və keyfiyyətlə icra olunub. Koronavirus pandemiyası ilə əlaqədar müəyyən edilmiş bir sıra qadağa tələbləri nəzərə alınmaqla, qoşunlarda təlim prosesi müvafiq direktivin tələbləri əsasında keçirilib.

Bununla yanaşı, məruzədə 2020-ci il ərzində Daxili Qoşunların şəxsi heyəti ilə tərbiyə işinin təşkilinin və hərbi intizamın vəziyyətinin qənaətbəxş olduğu vurğulanıb. Bildirilib ki, respublikada baş verən ictimai-siyasi hadisələr daim diqqət mərkəzində saxlanılıb, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm dövlət quruculuğu prosesi, Vətən müharibəsində qazanılmış tarixi Qələbənin əhəmiyyəti, işğal altında olan torpaqlarımızın azad edilməsi, dövlətimizin beynəlxalq arenada nüfuzunun artması şəxsi heyət arasında geniş təbliğ edilib. Qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsi, xəsarətalma hallarının və nizamnamədənkənar münasibətlərin qarşısının alınması, kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin yaradılması diqqətdə saxlanılan məsələlərdən olub.

Həmçinin, cari il ərzində Daxili Qoşunlarda maddi-texniki bazanın möhkəmləndirilməsi ilə bağlı tədbirlərin ardıcıllıqla davam etdirilməsi, şəxsi heyətin kazarma-məişət şəraitinin müasir standartlara uyğunlaşdırılması və hərbi qulluqçuların zəruri tələbatlarının təminat normalarına uyğun təmin olunması da diqqətə çatdırılıb. Qeyd edilib ki, qoşunların maddi-texniki təminatının əsas istiqamətləri qarşıda duran vəzifələrin və xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi üçün tələb olunan vasitələrlə hərbi hissələrin təmin edilməsinə yönəldilib.

Şəxsi heyətin sağlamlıq vəziyyəti də daim diqqət mərkəzində saxlanılıb, bu məqsədlə tələb olunan müalicə-profilaktik və sanitar-epidemioloji tədbirlər aparılıb, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarında yaralanan və travma alan hərbi qulluqçuların müalicəsi və reabilitasiyası üçün zəruri tibbi tədbirlər həyata keçirilib, habelə şəxsi heyət arasında koronavirus infeksiyasının yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınmasına, xəstəliklərin erkən aşkar olunmasına, eləcə də vaxtında hospitalizasiyasına və müalicəsinə xüsusi önəm verilib. Hərbi hissələrdə əksepidemik, müxtəlif virus və infeksiya mənşəli xəstəliklərə qarşı tədbirlər vaxtında həyata keçirilib.

Daha sonra bir neçə hərbi hissə komandirinin və onların müavinlərinin mövcud vəziyyət, diqqətçəkən nöqsan və çatışmazlıqların yaranma səbəbləri barədə hesabat-çıxışları dinlənilib. Çıxışlar zamanı qeyd olunub ki, ümumilikdə, hərbi hissələr qarşıya qoyulmuş tapşırıqlardan irəli gələn vəzifələri tam həcmdə yerinə yetirib.

Çıxışlardan sonra daxili qoşunların komandanı növbəti yarımildə qarşıda duran vəzifələrlə əlaqədar aidiyyəti vəzifəli şəxslərə tapşırıqlar verib.

**Sonda iclasa yekun vuran general-leytenant Ş.Məmmədov Daxili İşlər Nazirliyinin mühüm struktur qurumu olan Daxili Qoşunların müasir silah və texniki vasitələrlə təchizatının, şəxsi heyətin sosial məişət şəraitinin daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən daim diqqətdə saxlanıldığını qeyd edib. Daxili Qoşunların şəxsi heyətinin Vətən müharibəsində qəhrəmanlıq salnaməsinin və gündəlik xidməti-döyüş fəaliyyətinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən layiqincə qiymətləndirildiyini bildirərək, fəaliyyətimizə olan bu diqqətin və verilən qiymətin şübhəsiz olaraq, Daxili Qoşunların şəxsi heyətini gələcəkdə daha böyük nailiyyətlərin əldə edilməsinə ruhlandıracağını vurğulayıb. O, Daxili Qoşunların şəxsi heyətinin bundan sonra da müəyyən edilmiş vəzifələrin, qarşıya qoyulacaq tapşırıqların tam həcmdə, əzmlə yerinə yetiriləcəyinə əminliyini ifadə edib və hərbi qulluqçulara fəaliyyətlərində uğurlar arzulayıb.**

**Mətbuat xidməti**

# ÇAĞIRIŞÇILARIN QƏBULU UĞURLA BAŞA ÇATDIRILIB

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən, yanvar ayının 1-dən etibarən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu prosesi həyata keçirilib. Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının "Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında" əmri ilə





çağırışçıların tibbi müayinəsinin aparılması və mənəvi-psixoloji durumunun qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb. Daxili Qoşunların Baş İdarəsinin Qərargahında təşkilat və komplektləşdirmə şöbəsinin rəisi polkovnik Xalid Bağırov seçim qrupunun rəhbəri təyin edilib.

25031 saylı hərbi hissədə olarkən bu sahədə görülən işlərin, verilən tapşırıqların icrası ilə tanış olmaq, vəziyyəti yerində öyrənmək imkanım oldu.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Müşfiq Xankişiyev bildirdi ki, çağırışçıların xidmətə cəlb edilməsi və hərbi anda gətirilənədək müvafiq qaydada hazırlanması daxili qoşunların komandanlığının diqqət yetirdiyi ən vacib məsələlərdən biridir. Onların hərbi xidmətə tədricən uyğunlaşmaları, hərbi nizamnamələrin müddəaları ilə tanış olmaları, eləcə də mənəvi-psixoloji durumlarının yüksək səviyyədə saxlanılması təsdiq edilmiş tədbirlər planına əsasən icra edilib. İlk olaraq, mənəvi-psixoloji hazırlıq planları hazırlanıb və hərbi hissə komandiri tərəfindən təsdiq olunub.

Çağırışçıların 45 günlük təlim dövründə bütün tədbirlər həmin plana əsasən həyata keçirilir: "Təlim dövründə sıra, ictimai-siyasi, fiziki və atəş hazırlığı məşğələlərinə xüsusi diqqət yetirilir. Daxili Qoşunların təyinatı və vəzifələri, istifadədə olan silahların taktiki-texniki xüsusiyyətləri, nişanalma və təhlükəsizlik qaydaları, hərbi qulluqçular arasında qarşılıqlı münasibətləri özündə əks etdirən müvafiq nizamnamələrin maddələri ilə bərabər, qanunvericilik aktlarının aidiyyəti müddəaları da əsgərlərə öyrədilir. Sonuncu həftədə isə praktiki atışlar yerinə yetirilir və hər bir əsgər fərdi qaydada qiymətləndirilir".

Sonra çağırışçıların qəbul məntəqəsində seçim qrupunun fəaliyyəti ilə tanış oldum. Qəbul məntəqəsində daxil olarkən hərbi həkim komissiyasından keçməzdən əvvəl seçim qrupunun üzvləri tərəfindən onlarla söhbətlər aparılıb.

Söhbət zamanı çağırışçıların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşü, Vətənə bağlılığı, orduya münasibəti, sosial vəziyyəti, təhsili, bacarıq və işgüzar keyfiyyətləri, yaxın qohumlarının məhkumluğunun olub-olmaması ətraflı öyrənilib. Həmçinin, onlara hərbi xidmətin üstünlükləri izah edilib, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslərin, döyüş ruhunun aşılanması, mənəvi-psixoloji durumun yüksəldilməsi məqsədilə Daxili Qoşunların şərəfli döyüş yolu, qəhrəmanları haqqında məlumat verilib. Bütün məlumatlar toplandıqdan sonra hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanıb və hərbi hissəyə təqdim olunub.

Çağırışçılar növbə ilə həkim-terapevt, həkim-stomatoloq, həkim ekspert-psixonevroloq və ordinator-oftalmoloq tərəfindən müayinə olunublar, onlara ümumi bədən baxışı keçirilib, həmçinin, profilaktik-flüoroqrafik müayinədən keçirilmələri təmin olunub.

Çağırışçıların tibbi müayinədən keçirilməsi barədə məlumat verən qrupun üzvü - Daxili Qoşunların Baş İdarəsinin Tibb xidmətində sanitar-epidemiologiya dəstəsinin rəisi-baş sanitar həkim tibb xidməti polkovnik-leytenantı Vüqar İbrahimov vurğuladı ki, nəzarət-buraxılış məntəqəsində hərbi hissəyə gətirilən bütün çağırışçıların hərarəti ölçülüb və hər biri tibbi maska ilə təmin olunub. Növbə ilə həkimlər tərəfindən yoxlanıldıqdan sonra bütün dünyada və ölkəmizdə yayılan koronovirus xəstəliyi ilə əlaqədar olaraq TƏBİB-in həkimləri tərəfindən bütün çağırışçılardan analizlər götürülüb. Müayinələrdən keçən çağırışçılar barədə hərbi həkim komissiyası tərəfindən rəylər verilib və onlar yalnız praktiki sağlam hesab olunduqları halda hərbi xidmətə qəbul olunublar. O, tibbi personalın normal işi üçün hərbi hissədə bütün zəruri şəraitin yaradıldığını da sözlərinə əlavə etdi. Bundan əlavə, gündəlik olaraq bölmələrdə də hərbi qulluqçuların səhhətinin yoxlanıldığını, tibbi maskadan və əlcəklərdən istifadə qaydaları barədə onlarla söhbətlər aparıldığını vurğuladı.

Çağırışçıların əşya əmlakları, eləcə də bədən ölçülərinə uyğun olan geyimlərlə təmin olunmaları da diqqətdə saxlanılıb. Onlarla hərbi hissədə bölük və taqım komandirləri tərəfindən tərbiyəvi söhbətlər aparılıb, hərbi xidmətə adaptasiya olunmaları üçün müvafiq məsləhətlər verilib. Bu işdə tərbiyə işləri üzrə bölmədə təlimatçı-psixoloq kapitan Cəmilə Ələkbərovanın rolunu xüsusilə vurğulamaq yerinə düşər.





O, çağırışçılarla aparılan adaptasiya prosesi haqqında ətraflı məlumat verərək bildirdi ki, ilk olaraq sosial-psixoloji çətinliklərlə üzləşənlər, yüksək dərəcədə psixoloji diqqət və nəzarət tələb edənlər müəyyənləşdirilib, müvafiq psixoloji məsləhətləşmələr aparılıb. Onlarla söhbətlər edilib, dinlənilib, səhhətləri ilə bağlı narahat edən hallar aşkarlandıqda, aidiyyəti üzrə məruzə olunaraq, aradan qaldırılması üzrə komandir heyəti ilə müvafiq tədbirlər həyata keçirilib. Bunun üçün manqa və taqım komandirləri ilə qarşılıqlı şəkildə fəaliyyət göstərdiyini bildirən kapitan C.Ələkbərova vurğuladı ki, komandir heyətinə də hər bir əsgərə fərdi yanaşmağın, onlara diqqət və qayğı göstərməyin, həmçinin, hərbi qulluqçuların əhval-ruhiyyəsində müəyyən dəyişiklər olduqda, dərhal aidiyyəti üzrə məruzə edilməsinin vacibliyi xatırladılıb.

**Bölmələrdə yuyunma və məişət otaqlarında yaradılan ciddi səliqə-sahman, hərbi qulluqçuların saçlarının və geyim formalarının qaydaya salınması üçün hər bir şəraitin mövcud olması onu deməyə əsas verir ki, daxili qoşunların komandanlığının nəzarəti altında həyata keçirilən gənc çağırışçıların qəbulu prosesi uğurla başa çatdırılıb.**

**baş leytenant**
**Xədicə Hacızadə**

3_Layout 1 29.01.2021 10:04 Page 1



*Şəhidlərimiz*

# QƏLƏBƏ İNAMI İLƏ DÖYÜŞDÜ VƏ ŞUŞADA ÖLÜMSÜZLƏR MƏQAMINA UCALDI...

**Ötən illərdə şəhid hərbi qulluqçularımız haqqında davamlı olaraq məqalələr yazmışam. Bu məqalələrdə həmişə qeyd etmişəm ki, şəhidlərimizin qanı tökülmüş torpaqlarımız düşmən tapdağında qalmayacaq. Onların layiqli davamçılarının yetişdiklərini, yeni nəsil hərbi qulluqçularımızın torpaqlarımızın bütövlüyünü bərpa edəcəklərini vurğulamışam. Çünki şəhidlik zirvəsi elə bir dəyərli örnəkdir ki, zaman ötsə də, nəsillər dəyişsə də, daim Vətən və xalq naminə fədakarlığa ruhlandırır, mübarizlik əqidəsi aşılayır.**

**27 sentyabr-9 noyabr 2020-ci il tarixlərini əhatə edən Vətən müharibəsindən sonra artıq qalib ölkədə yaşayırıq. Qarabağımızın tacı olan Şuşada və işğaldan azad edilən digər rayonlarımızda bu gün üçrəngli bayrağımız dalğalanır. Şəhidlərimizin ruhu sevinir, məcburi köçkünlərimizin üzü gülür. Bu tarixi zəfəri xalqımıza Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Silahlı Qüvvələrimiz bəxş etdi.**

**Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının şəxsi heyəti də qələbəmizə öz layiqli töhfəsini verib. Daxili Qoşunların 66 nəfər hərbi qulluqçusu bu ölüm-qalım savaşında cəsurluqla vuruşaraq əbədiyyətə qovuşub. Onlardan biri kapitan Babayev Şamil Baloğlan oğludur.**

Şamil 1988-ci il yanvarın 26-da Naxçıvan Muxtar Respublikası Culfa rayonunun Camaldın kəndində dünyaya göz açıb. Baloğlan Babayev və Atikə Babayevanın qurduğu çoxuşaqlı ailədə böyüyüb, ədəb-ərkanlı, ləyaqətli gənc kimi yetişib. Ata-anasının sonbeşiyi olan Şamil mənəvi dəyərlərimizə, el-obanın adət-ənənələrinə həmişə ehtiramla yanaşıb. Ailədə onu vətənpərvər ruhda tərbiyə ediblər. Böyük qardaşı, Birinci Qarabağ müharibəsi veteranı, vaxtilə xüsusi təyinatlı kimi xidmət etmiş Əli Babayevin Şamilin dünyagörüşünün formalaşmasında rolu az olmayıb. Hələ orta məktəb illərindən Şamildə hərbi xidmətə, hərbçi peşəsinə maraq yaranıb. Bu baxımdan dayısı Ələkbər Qurbanovun keçdiyi təqdirəlayiq hərbi xidmət yolu da gənc üçün əzmkarlıq nümunəsi idi. Qeyd edim ki, Ə.Qurbanov Daxili Qoşunların veteranı və ehtiyatda



olan zabitdir.

2006-2007-ci illərdə Ş.Babayev Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirib.

2010-cu ilin iyul ayından etibarən Ş.Babayev Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 25033 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində qumbaraatan vəzifəsinə təyin edilib. Xidmətdə çalışqanlığı və komandanlığın etimadını doğrultması nəzərə alınaraq, o, Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbinə (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi) hərbi təhsil almağa göndərilib. 2012-2014-cü illərdə burada təhsil aldığı dövrdə kursant kimi öz hazırlığı ilə fərqlənib.

Sonra yenidən hərbi xidmətini 25033 saylı hərbi hissədə davam etdirib. Bu dəfə zabit olaraq minaatan batareyada taqım komandiri vəzifəsinə irəli çəkilib. Ancaq Şamil üçün hərbi xidmətdə əsas məramlardan biri xüsusi təyinatlıların sırasında olmaq idi. Öz bilik və bacarığını məhz xüsusi təyinatlı bölmədə realizə və inkişaf etdirmək istəyirdi. Hərbi hissənin xüsusi təyinatlı dəstəsində atəş təminatı qrupunun komandiri vəzifəsinə təyin olunması onun ruh yüksəkliyini daha da artırmışdı.

2018-ci ilin fevral-iyun aylarında Şamil Türkiyə Cümhuriyyətinin Jandarm Komando Məktəbləri və Təlim Mərkəzində jandarm zabit komando təməl kursu keçib. Bu kursda yiyələndiyi biliklər və qazandığı praktiki təcrübə onun xüsusi təyinatlı kimi peşəkarlıq səviyyəsinin yüksəldilməsində vacib rol oynayıb.

Kursdan sonra 25033 saylı hərbi hissədə əvvəlki vəzifəsində xidmət edən Şamil tabeliyindəki şəxsi heyətin də döyüş və mənəvi-psixoloji hazırlığının müasir tələblər səviyyəsində artırılması yönündə öz səylərini əsirgəməyib. Komandir kimi daim onlara xüsusi təyinatlı üçün xas olan keyfiyyətlərin aşılanmasına üstünlük verib. Bununla yanaşı, onunla xidmət edənlər nəcib insani keyfiyyətlərini, şəxsi heyətə qayğıkeşliyini də vurğulayırlar. Heç vaxt silahdaşlarının hansısa probleminə, çətinliyinə laqeyd qalmayıb.

Vətən müharibəsi başlayanadək Şamil "kapitan" hərbi rütbəsinədək yüksəlib. 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı və müxtəlif həvəsləndirmə növləri ilə mükafatlandırılıb. Peşəkar və öz məsləyinə sadiq olan zabit kimi fəaliyyəti onun hərbi karyerasında yüksəlişi üçün tutarlı bünövrə yaratmışdı. Ancaq onu həyatda müqəddəs bir zirvə gözləyirdi...

Dağlıq Qarabağda erməni separatizminin baş qaldırdığı ildə anadan olmuş Şamil Birinci Qarabağ müharibəsi dövründə kiçik yaşlarında idi. Sonradan həmin müharibə haqqında dayısının və böyük qardaşının söhbətlərini dinləmişdi. Həmkəndliləri və qohumları arasında o vaxt şəhid olmuşlar barədə də məlumatı vardı. O, özünü şəhid və qazilərimizin yolunun davamçısı kimi görürdü. Şamil və onun kimi neçə-neçə qeyrətli gəncin Vətən sevgisindən irəli gələn əsas həyat amalı itirdiyimiz torpaqları qan töküb, can verib geri almaq, illərlə acısını çəkdiyimiz bu qəbuledilməz gerçəkliyi dəyişmək idi.

44 gün davam edən Vətən müharibəsində kapitan Ş.Babayev şərəfli döyüş yolu keçib. Füzuli, Qubadlı, Xocavənd rayonları ərazisində və Şuşa şəhəri uğrunda döyüşlərdə şücaət göstərib. Tərkibində vuruşduğu bölmə tərəfindən düşmənin canlı qüvvəsinə və texnikasına ciddi zərbələr vurulub, ermənilərin keçilməz saydığı postlar, atəş nöqtələri darmadağın edilib. İşğalçıya məxsus xeyli silah-sursat, digər döyüşaparma vasitələri qənimət götürülüb. Cəsur zabit bəzi döyüşlər zamanı tabeliyindəki hərbi qulluqçuları düşmənin qurduğu pusqudan çıxarmağı bacarıb, ağır itkilərə uğramaq təhlükəsinin qarşısını alıb.

Şuşa əməliyyatının bizim zəfərimizlə başa çatması üçün bir zabit kimi onun və komandiri olduğu döyüşçülərin də göstər-



diyi rəşadət barədə hələ çox danışılacaq və yazılacaq. Bu əməliyyatın bir sıra unikal taktiki xüsusiyyətləri hərbi dərsliklərə yazılacaq. Yüksəklikdə və mürəkkəb relyefə malik ərazidə yerləşən Şuşanın texnikasız, dağ-meşə cığırları ilə yaxınlaşaraq, sıldırım qayalar üzərindən qalxaraq, qətiyyətli həmlə edilməklə işğaldan azad olunması qəhrəmanlıq nümunəsidir.

Kapitan Ş.Babayev 2020-ci il noyabrın 7-də Şuşa şəhərində olduğu mövqenin düşmən tərəfindən minaatanlardan atəşə tutulması nəticəsində bədəninin bir neçə nahiyəsindən ağır yaralanıb. Zabitə tibbi yardım göstərilsə də, şəhər və ətrafı atəş altında olduğundan, 7-8 noyabrda qospitala təxliyyəsi mümkün olmayıb. Şəhərdə yerləşdirildiyi sığınacaqlar da düşmənin şiddətli atəşinə məruz qalıb. Şamilin aldığı ağır yaralardan vəziyyəti kəskin pisləşib və o, noyabrın 8-də silahdaşlarının yanında dünyasını dəyişib.

16.11.2020-ci ildə Naxçıvan MR Ədliyyə Nazirliyinin Culfa Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilən ölüm haqqında şəhadətnamədə isə kapitan Ş.Babayevin ölüyü tarix 10.11.2020-ci il qeyd edilib.

Kapitan Ş.Babayev Camaldın kəndinin qəbiristanlığında dəfn olunub. Məzarı üzərinə həkk edilən ölüm tarixi də 10.11.2020-ci ildir.

Onunla birgə döyüşlərdə iştirak etmiş müddətdən artıq həqiqi hərbi xidmətdə olan əsgər Sərvət Abdulheyev (25033 saylı hərbi hissə) və Daxili Qoşunlardan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olaraq əsgər rütbəsində ehtiyata buraxılmış Oruc Rüstəmov mənə kapitan Ş.Babayev barədə xatirələrini danışdılar. Sərvət və Oruc bu müharibədə qarşıya qoyulan döyüş tapşırıqlarını cəsarətlə yerinə yetirərək yaralanıblar. Hər biri müxtəlif medallarla təltif olunub. Onlar söylədilər ki, Şamil bir komandir kimi döyüşlərdə həmişə irəlidə olub, döyüşçüləri də ruhlandırıb. Öz peşəkarlığı sayəsində dəyişən vəziyyət, ərazinin xüsusiyyətləri, düşmənin hərəkətləri nəzərə alınaraq, çevik və düzgün qərarlar qəbul etməyi bacarıb. Bildirildi ki, qorxmaz zabit dəfələrlə düşmən üzərinə həmlədə xüsusi təyinatlı məharətini göstərib. Belə həmlələr zamanı işğalçıların mövqeləri ələ keçirilib. Bununla yanaşı, Şamil tabeliyindəki döyüşçüləri qorumağa çalışıb, müharibə şəraitində belə, onların ehtiyacları ilə daim maraqlanıb. Silahdaşlarının hər bir ölüm və yaralanma halı onu dərindən sarsıdıb.

Şuşada ağır yaralandıqdan sonra Şamil ölümqabağı kəlmeyi-şəhadətini də söyləyib. Döyüşçülər onun həyatının xilas edilə bilməməsinin üzüntüsünü qəlblərində həmişə yaşayacaqlar.

**Azərbaycan Respublikası Prezidentinin imzaladığı 9 dekabr 2020-ci il tarixli, 15 dekabr 2020-ci il tarixli, 25 dekabr 2020-ci il tarixli, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamlarla kapitan Ş.Babayev ölümündən sonra "Zəfər" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.**

Şəhid haqqında "Komando" adlanan videofilm çəkilib. Şamil evli idi, 6 yaşlı bir oğul yadigarı qalıb, adı Yusifdir. Yusif üçrəngli bayrağımızı sevir, hərbi formaya rəğbətlə yanaşır. Atasının əşyaları və şəkillərinə kədərlə baxır. Bu əşyalar və şəkillər həyatı boyu onun qəlbində bir nisgil oyadacaq və atasının yoxluğunu xatırladacaq. İnanırıq ki, o, böyüyüb Şamilin adına layiq övlad olacaq, Vətən torpağını da onun kimi göz bəbəyi kimi qoruyacaq.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**Yalçın Abbasov**

---

*Qazilərimiz*

# "ƏN BÖYÜK ARZUM SONADƏK VURUŞMAQ VƏ TORPAQLARIMIZI AZAD GÖRMƏK İDİ..."

**Müzəffər Azərbaycan Ordusu ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında 2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam edən 44 günlük "Dəmir yumruq" əməliyyatında - Vətən müharibəsində erməni işğalçılarının başını əzərək torpaqlarımızı azad etdi. Azərbaycanın düşmən üzərində qazandığı bu möhtəşəm Qələbədə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının da öz zəhməti və hünər payı var.**

**Bu sayımızdan etibarən sizlərə təqdim edəcəyimiz "Qazilərimiz" rubrikasında Vətən müharibəsində rəşadətlə döyüşərək yaralanmış hərbi qulluqçularımızın bugünkü və gələcək nəsillərə örnək olacaq həyat və döyüş yolunu işıqlandıracağıq.**

Daxili Qoşunların Vətən müharibəsində qəhrəmancasına döyüşərək ağır yaralanmış hərbi qulluqçularından biri gizir Yaxin Rasim Rinatoviçdir.

Gizir Rasim Yaxin 1988-ci il avqustun 4-də Bakı şəhərində anadan olub. Milliyyətcə tatar olan Yaxinlər ailəsində böyüyüb boya-başa çatan Rasim orta təhsilini Səbail rayonundakı Etibar Əliyev adına 162 saylı orta məktəbdə alıb. Müddətli həqiqi hərbi xidmətini 2006-2008-ci illərdə Milli Qvardiyanın xüsusi təyinatlı bölməsində keçib. 2011-ci ildən Daxili Qoşunların 99713 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi yenidən Vətənə olan borcunu şərəflə yerinə yetirməyə başlayıb.

Xidmət etdiyi dövrdə iki dəfə - 2014-cü ilin sentyabr ayından 2015-ci ilin mart ayınadək Daxili Qoşunların Ali Hərbi Məktəbində və 2020-ci ilin fevral ayının 10-dan 28-dək qardaş Türkiyə Respublikası Jandarm Baş Komandanlığının Jandarm Özəl Asayiş Komandanlığında müvafiq olaraq "Gizir hazırlığı kursu" və "Qış dağ arama qurtarma və xizək sürmə kursu"nda təhsil alıb.

Hərbi hissənin ayrı-ayrı bölmələrinin tərkibində müxtəlif vəzifələrdə xidmətini davam etdirən R.Yaxin 2018-ci ilin may ayından yaralandığı günədək xüsusi təyinatlı dəstədə yarımqrup komandiri kimi vəzifələrini layiqincə yerinə yetirib. Hər zaman yüksək hərbi intizamı və qüsursuz xidmətilə fərqlənən hərbi qulluqçu kimi "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalla, eləcə də hərbi hissə komandanlığı tərəfindən bir sıra mükafatlarla təltif edilib.



Vətən torpaqlarını düşmən tapdağından azad görmək hər bir Azərbaycan vətəndaşı kimi onun da ən böyük arzusu olub. Məhz buna görə də Ali Baş Komandanın rəhbərliyi altında başlayan Vətən müharibəsində fəal iştirak edən gizirimiz Kəlbəcər, Cəbrayıl, Füzuli və Şuşa istiqamətlərində gedən döyüşlərdə qəhrəmancasına vuruşub: "Qismətimə qazi və ya şəhid olmaq yazılıbsa belə, bunun ilk döyüşlərdə baş verməsini istəmirdim. Çünki ən böyük arzum sonadək vuruşmaq və torpaqlarımızı azad görmək idi. İlk döyüşümüz 2020-ci il sentyabrın 27-də Kəlbəcər istiqamətində olub. Sonra Cəbrayıl və Füzuli rayonlarının bir sıra yaşayış məntəqələrinin və bu bölgədəki yüksəkliklərin azad olunması üzrə gedən döyüş əməliyyatlarında yaxından iştirak etdik. Ən son tapşırığımız isə Şuşanın azad olunması idi.

Noyabrın 6-da axşam Şuşaya hücuma keçdik. Şuşa istiqamətində aparılan uğurlu döyüş əməliyyatı nəticəsində bir neçə strateji yüksəklik düşməndən azad edildi. Yüksəklikləri alandan sonra, növbəti günün axşamı ermənilər olduğumuz mövqeləri tank və minaatanlardan güclü atəşə tutdular... Bir də o yadımdadır ki, qulağımda möhkəm səs əmələ gəldi və hər yeri qırmızı görürdüm. Nəfəs ala bilmirdim. Nəfəs alandan sonra sanki ayıldım və hiss etdim ki, sol qolumda istilik var. Baxanda gördüm ki, sol biləyim yoxdur. Yanımda Qazax rayonunun Çaylı kəndindən olan döyüşçü yoldaşım baş çavuş İsmayıl Qəsəbov vardı. Onu sirkələyəndən sonra gördüm ki, şəhid olub. Allah rəhmət eləsin. Çox qəhrəman bir döyüşçü idi...

Sonra başladım sanitar axtarmağa. Sanitar ilkin yardımı göstərdikdən sonra gecəni qaldıq orada. Səhərə yaxın yaralıları apardılar, bir evə yığdılar. Noyabrın 8-i axşam isə oradan təxliyyə olunduq. Əvvəlcə bizi Hadrut qəsəbəsinə, orada tibbi yardım göstərildikdən sonra isə Bakıya, Daxili Qoşunların Hərbi Qospitalına gətirdilər".

Gizir R.Yaxin burada 3 dəfə əməliyyat olunub. Şuşanın azad olunması uğrunda gedən qanlı döyüşdə ağır yaralanaraq sol gözünü və biləyini itirən Rasim buna təəssüflənmədiyini, əksinə, ən böyük arzusuna qovuşduğunu deyir: "Qəlpə sol gözümü və çənəmi üç yerdən dağıtmışdı. Həm də qəlpə sol biləyimi aparıb. Daxili Qoşunların Qospitalında keçirdiyim əməliyyatlardan sonra bir az özümə gəlmişəm və düzəlmişəm. Gözüm əməliyyat olunub, amma mən hələ də görmürəm. Mən fəxr edirəm ki, Azərbaycan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında xidmət etmişəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralı qardaşlarımıza da şəfa versin. Mənim milliyyətim tatardır. Amma Azərbaycan vətəndaşıyam və bununla da fəxr edirəm. Mən Azərbaycanın suyunu içib, çörəyini yemişəm. Mənim övladlarım da Azərbaycanın suyunu içib, çörəyini yeyib. Bundan sonra da Azərbaycanın torpaqları uğrunda vuruşmağa və müdafiəsində dayanmağa hazıram".

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2020-ci il tarixli müvafiq Sərəncamı ilə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən cəsarət və fədakarlıq göstərdiyinə, habelə təşəbbüskar və qətiyyətli hərəkətlər nümayiş etdirdiyinə görə gizir Yaxin Rasim Rinatoviç "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilib.

99713 saylı hərbi hissədə "Şahin" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri, "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına, "Şücaətə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmiş polkovnik Zəfər Yusubov (Vətən müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşdə yaralanıb) dəstədə yarımqrup komandiri kimi xidmət etmiş gizir R.Yaxinin yoldaşları tərəfindən bu gün də vətənpərvər və nümunəvi hərbi qulluqçu kimi xatırlandığını deyir: "Vətən müharibəsində dəstəmizin qəhrəmancasına vuruşaraq yaralanan 51 nəfər hərbi qulluqçusundan biri də gizir Rasim Yaxindir.

Olduqca vətənpərvər və son dərəcə məsuliyyətli hərbi qulluqçu olan gizir R.Yaxinin kiçik komandir kimi fəaliyyəti hərbi hissə komandanlığı tərəfindən də hər zaman müsbət qiymətləndirilib. Belə ki, atəş və fiziki hazırlıq üzrə keçirilən praktiki məşğələlərdə onun komandiri olduğu yarımqrup qazandığı müsbət nəticələrə görə fərqlənib və nümunə olub. Xidməti-vəzifə borclarının öhdəsindən layiqincə gələn və kollektiv arasında böyük nüfuza malik olan bir hərbi qulluqçu kimi tanınıb. Nə deyim? Qazi silahdaşımızla hər zaman qürur duyur və Rasimin timsalında bütün yaralanmış hərbi qulluqçularımıza şəfa diləyirik".

Məlumat üçün qeyd edək ki, "Xəzər" və "ARB" televiziya kanallarının, o cümlədən, "APA" TV və "Öndər" TV saytlarının "YouTube" internet portalı vasitəsilə yayımlanan xəbər proqramlarındakı "Şuşaya üç gün yol gedib. Əlini və gözünü itirsə də, sona qədər döyüşüb", "44 günlük Vətən müharibəsinin tatar qazisi", "Milliyyətcə tatar olan qazi: "Birdən gördüm ki, biləyim yoxdur"" və "Vətən naminə" adlı süjetlərdə gizir R.Yaxinin gənc nəslə nümunə olan döyüş yolu barədə məlumatlar izləyicilərə təqdim edilib.

**Rasimin Amina və Alsu adında iki qız övladı var. Adını Vətənin qəhrəmanlıq tarixinə yazmış cəsur hərbi qulluqçumuza bundan sonra da sevdikləri ilə birgə məsud yaşamasını arzu edirik.**

**mayor Anar Əhmədov**

4_Layout 1 29.01.2021 10:11 Page 1



# QALİB ÖLKƏNİN VƏTƏNDAŞI OLMAQ QÜRURUNU YAŞAYIRIQ

Dünya tarixində bu günədək müxtəlif müharibələr olub. Bəzi dövlətlər baş vermiş müharibələrdə qalibiyyət sevincini, digərləri isə məğlubiyyət acısını yaşayıblar. Şübhəsiz ki, hərbi zəfərə nail olan ölkə tarixdə şöhrət qazanır.

2020-ci il 27 sentyabr - 9 noyabr tarixlərində Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək uğrunda işğalçı Ermənistana qarşı Vətən müharibəsi bizim ölkə və xalq olaraq qələbəmizlə başa çatdı. Öz keşməkeşli uzaq və yaxın tariximizin faciəvi səhifələrindən sonra dövlətimiz möhtəşəm hərbi-siyasi uğura imza atdı. Artıq Azərbaycanın adı çəkiləndə qalib ölkə ifadəsi səslənir. Bu gün biz qalib ölkənin vətəndaşı olmaq qürurunu yaşayırıq. Azərbaycanı bu şərəfli zəfərə qovuşduran Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin tarixi xidmətini, qalib Silahlı Qüvvələrimizin misilsiz hünər və fədakarlığını xalqımız heç vaxt unutmayacaq.

Azərbaycan 1994-cü ilin may ayından başlanan və 2020-ci ilin 27 sentyabrınadək davam edən uzunmüddətli atəşkəs dövründə iqtisadi və hərbi cəhətdən güclənib, müasir standartlara cavab verən hərbi sənaye yaradıb, öz dövlətçiliyini möhkəmləndirib, beynəlxalq aləmdə daha geniş tanınıb, siyasi nüfuzunu artırıb. Demoqrafik sahədə müsbət göstəricilərə nail olunub, əhalinin maddi rifahı yüksəlib. Milli birlik və ictimai həmrəyliyin qorunub saxlanılması təmin edilib. Vətənpərvər gənc nəsil yetişdirilib, azərbaycançılıq məfkurəsi dövlətimizin ideoloji əsası kimi formalaşıb.

Respublikamız qabaqcıl texnologiyaların tətbiqi yönündə ardıcıl addımlar atıb, kosmosa öz süni peyklərini buraxıb. Enerji daşıyıcılarının sabit ixracatçısı olmaqla yanaşı, ölkəmiz beynəlxalq əhəmiyyətli nəqliyyat-logistika dəhlizlərinin yaradıcısına və yönəldicisinə çevrilib.

Bütün bu və digər faktorlar



27 sentyabr - 9 noyabr Vətən müharibəsi ərəfəsində Azərbaycanın hansı üstünlüklərə, nə kimi potensiala malik olduğunu, öz ərazi bütövlüyünü bərpa etmək üçün onun hərtərəfli hazırlığını göstərir. Biz müharibəyə qədərki dövrdə çətin diplomatik mübarizə, dalana dirənən sülh danışıqları dönəmində dəfələrlə bəyan etmişik ki, torpaqlarımızın işğal altında qalması ilə heç vaxt barışmayacağıq. Düşmənin dinc yolla ərazilərimizdən çəkilməyəcəyi təqdirdə tərəfimizdən hərbi güc tətbiqinin gündəmə gələcəyi barədə də ölkəmiz öz xəbərdarlığını etmişdi. 2016-cı ilin aprel döyüşləri və 2018-ci ilin mayında uğurlu Günnüt əməliyyatı zamanı təcavüzkara sarsıdıcı zərbə vurulmuşdu. 2020-ci ilin iyul ayında isə Ermənistanın dövlət sərhədimizdə, Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribatın qətiyyətlə qarşısı alınmış və düşmən susdurulmuşdu. Ancaq erməni tərəfinin ötən il sentyabrın 27-də növbəti dəfə hərbi təxribatlara əl atması, atəşkəs rejimini kobud şəkildə pozmasına cavab olaraq ölkəmiz əks-hücum əməliyyatına başladı və 44 gün ərzində Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Xocavənd, Xocalı və Laçın rayonlarının bir hissəsi, Şuşa şəhəri, Ağdərə şəhəri ətrafındakı Suqovuşan, Talış kəndləri, Murovdağ silsiləsindəki yüksəkliklər işğaldan azad edildi. Beləliklə, müharibədə məğlub olan Ermənistan respublikamızın Ağdam, Kəlbəcər və Laçın rayonlarını da bizə təhvil verməyə məcbur oldu. İmzalanan üçtərəfli (Azərbaycan, Rusiya, Ermənistan) bəyanata əsasən, Rusiya sülhməramlılarının yerləşərək fəaliyyət göstərdikləri Dağlıq Qarabağ bölgəsində əvvəl azərbaycanlıların yaşadıqları şəhər, qəsəbə və kəndlərə də məcburi köçkünlərimiz geri qayıdacaqlar. Uzun illər Ermənistan tərəfindən Naxçıvana gedən yollar və kommunikasiyalar blokadaya alınıb. Qeyd edilən bəyanatın müvafiq müddəasına uyğun olaraq, bu bölgəmizə nəqliyyat dəhlizi açılacaqdır.

44 günlük müharibədən sonra Ermənistan və Dağlıq Qarabağdakı erməni icması özünə gələ bilmir. Ağır itkilər və darmadağın edilən hərbi potensial erməni tərəfində dərin şok yaradıb. Onlar elə məkrli xislətə malikdirlər ki, bu vəziyyətdə belə, separatçılıq ideologiyasının təsirindən çıxa bilmir, bizə qarşı ərazi iddialarından əl çəkmirlər. Şovinizm, ekstremizm, faşizm əqidəsinin daşıyıcısı olan ermənilər müharibədə məğlubiyyətin əvəzini çıxmaq barədə danışır, terror üsullarına əl atırlar. Ancaq bütün bu radikal addımların və düşmənçilik hərəkətlərinin ermənilər üçün yalnız faciəvi sonluğu ola bilər. Necə ki, son müharibə işğalçı tərəfi hansı aqibətin gözlədiyini onlara göstərmiş oldu.

Reallıq köklü şəkildə dəyişib. Qalib və güclü Azərbaycan faktoru ilə hesablaşmamaq mümkün deyil. Ermənistan isə dərin və uzunmüddətli böhrana uğrayaraq çökməkdə davam edəcək. Münaqişə zonasında Türkiyə və Rusiyanın atəşkəsə nəzarət üzrə birgə monitorinq mərkəzinin fəailiyyəti də erməni tərəfinin təxribatlarının yolunu kəsəcək. Bu gün Azərbaycan Ermənistanla dövlət sərhədində öz suveren hüquqlarının bərpasını inamla həyata keçirir. Beynəlxalq səviyyədə tanınan sərhədlərimizdə sərhədçilərimiz keşik çəkməyə başlayıblar.

Dövlətimiz işğaldan azad edilmiş bölgələrimizin bərpası və dirçəlişi üzrə proqramların icrasına start verib. Ərazilər minalardan təmizlənir, yollar, kommunikasiya xətləri çəkilir. Ölkəmizə vurulmuş ziyanın hesablanması aparılır. Ermənistanı işğalçılıq siyasətinin nəticələrinə görə təzminat ödəmək xofu bürüyür.

Məcburi köçkünlərimiz öz yurdlarına qayıtmağa hazırlaşırlar, onların bu günədək müvəqqəti yaşadıqları müasir mənzillər isə şəhid ailələrinə veriləcək.

Vətən müharibəsi iştirakçısı olan xeyli sayda hərbi qulluqçumuz dövlətimizin ali mükafatları ilə təltif olunub. Ölkəmizin mükafatlandırma sistemində əsaslı yeniliklər həyata keçirilib. İlk dəfə olaraq "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı, "Zəfər" və "Qarabağ" ordenləri, işğaldan azad olunan rayonların adlarını əks etdirən, habelə digər yeni növ medalların təsisi cəmiyyətimizdə yüksək ovqat, ruh yüksəkliyi yaradıb. Bu mükafatlara layiq görülən fədakar hərbi qulluqçularımızla fəxr edirik.

Hər il noyabrın 8-də Azərbaycan Zəfər gününü qeyd edəcək. Bugünkü nəsil öz qəhrəmanlığı ilə yeni tarix yazdı. Gələcəkdə bizi zəfər salnaməmizin yeni səhifələri gözləyir.

**Yalçın Abbasov**

# ANDINA, ƏQİDƏSİNƏ SADİQ QALAN TİBB QARDAŞI

***12576 saylı hərbi hissə - Hərbi Qospitalda, sözün həqiqi mənasında, vətənpərvərliyi və nümunəvi xidmətilə örnək ola biləcək tibb heyəti fəaliyyət göstərir. Mətbuat xidmətinin hərbi qulluqçuları olaraq biz də hər dəfə xidməti ezamiyyətdə olarkən onlar haqqında lazımi məlumatları toplayaraq oxucularımızın diqqətinə çatdırırıq. Bu dəfə də intizamı, cəsarəti ilə fərqlənən həmin hərbi qulluqçulardan biri - gizir Ziya Cəbiyev barədə material hazırlamaq qərarına gəldik.***



O, 1987-ci il yanvarın 14-də Yardımlı rayonunun Çayüzü kəndində dünyaya gəlib. Orta təhsilini doğma kəndində yerləşən Nizami Cəbiyev adına tam orta məktəbdə alıb. 2004-cü ildə orta təhsilini başa vurub. 2005-2006-cı illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2006-cı ildə əsgəri xidmətini başa vuraraq Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsinin hərbi tibb məktəbində feldşer ixtisasına qəbul olunub (2017-ci ildən feldşer hazırlıq kursu adlandırılıb). Hələ uşaq yaşlarından hərbi tibb sahəsinə marağı olan Ziya öz arzusunu reallaşdıraraq, 2008-ci ildə gizir rütbəsində təhsilini başa vurub. Elə həmin ildə Müdafiə Nazirliyinin Gəncə şəhərində yerləşən hərbi hissəsinin tibb məntəqəsində feldşer vəzifəsində xidmətə başlayıb. Daxili Qoşunlarda xidmətə qəbul olunması 2017-ci ilə təsadüf edir. Həmin ildən bu günə kimi 12576 saylı hərbi hissə - Hərbi Qospitalda Psixonevrologiya şöbəsində tibb qardaşı vəzifəsində xidmətini ləyaqətlə davam etdirir.

Gizir Z.Cəbiyev hər zaman funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşır, xidmətə münasibəti və orta tibb işçisi olaraq xəstə və yaralı hərbçilərimizə səmimi münasibətilə seçilir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan tibb qardaşı həm də insani keyfiyyətləri ilə digər silahdaşlarına örnəkdir. Vətənin dar günündə, heç nədən çəkinmədən, qorxmadan ötən il sentyabrın 27-dən etibarən vəzifəsi üzrə qarşısına qoyulan tapşırıqları icra edən gizir Z.Cəbiyev Vətən müharibəsi zamanı torpağına bağlılığını və seçdiyi ixtisasda heç də təsadüfi olmadığını sübut edib.

Özünün dediyinə görə, Füzuli, Xocavənd rayonları istiqamətində gedən döyüşlər zamanı yaralanan hərbi qulluqçularımıza zəruri tibbi yardım göstərərək, onların həyati təhlükəsinin qarşısını alıb. Bu gün İkinci Qarabağ müharibəsi iştirakçısı kimi torpaqlarımızın azad edilməsində azacıq da olsa payı olmasına sevinən, döyüş bölgəsindəki fəaliyyətini bir həyat imtahanı kimi qəbul edən hərbi qulluqçumuz bundan sonra da üzərinə düşən vəzifələrin icrasında fədakarlıq göstərəcəyinə söz verib.

Yeri gəlmişkən qeyd edək ki, hərbi hissə komandanlığı tərəfindən xidməti fəaliyyəti yüksək qiymətləndirilən gizir Z.Cəbiyev Hərbi Qospitalın rəisinin müvafiq əmrilə "2020-ci ilin tibb qardaşı" adına layiq görülüb.

Uğurlarınız bol olsun, yoldaş gizir!

**baş leytenant**
**Nigar Ağayeva**

*Nümunəvi xidmət*

# NÜMUNƏVİ XİDMƏTİLƏ ÖZÜNÜ DOĞRULDAN QADIN HƏRBİ QULLUQÇUMUZ

Daxili Qoşunların sıralarında savadı, bacarığı və xidmətə münasibətilə seçilən kişi hərbi qulluqçularla yanaşı, onlarla çiyin-çiyinə ləyaqətlə xidmət edən qadın hərbi qulluqçularımız da çoxdur. Mətbuat xidməti olaraq vaxtaşırı "Əsgər" qəzetinin səhifələrində biz onlar haqqında materialları oxucularımıza təqdim edirik.



Bu dəfə haqqında söz açacağımız qadın hərbi qulluqçu Daxili Qoşunların 16075 saylı hərbi hissəsində xidmət edən gizir Ləman Abdulxalıqovadır. O, 1993-cü il yanvarın 1-də Moldovanın Bender şəhərində dünyaya göz açıb. Yeddi yaşı olarkən valideynləri ilə birlikdə Azərbaycana qayıdan Ləman və ailəsi Sumqayıt şəhərində yaşayır. Sumqayıt şəhərində Mətləb Quliyev adına 3 nömrəli məktəbdə tam orta təhsil alıb. 2011-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Nəşriyyat işi və redaktə etmə" fakültəsinə qəbul edilib. Hərbi xidmətə olan marağı isə hələ orta məktəb illərində formalaşıb. Özünün dediyinə görə, hərbi müəlliminin xidmət haqqındakı maraqlı söhbətləri gənc qızda həyatını bu sahəyə həsr etmək arzusu oyadıb. 2016-cı ildə o, Daxili Qoşunların 16075 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlayıb. Hazırda həmin hərbi hissənin tərbiyə işləri üzrə bölməsində klub rəisidir.

Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Gizir L.Abdulxalıqova funksional vəzifələrinin icrasına da məsuliyyətlə yanaşır. O düşünür ki, hər bir Azərbaycan vətəndaşı öz vəzifələri çərçivəsində Vətənə olan bağlılığını göstərərək vicdanla xidmət etməyi bacarmalıdır.

**baş leytenant Nigar Ağayeva**

# YOL HƏRƏKƏTİ QAYDALARINA RİAYƏT OLUNMASI VACİBDİR

Daxili Qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında və qoyulan tapşırıqların uğurla yerinə yetirilməsində, avtomobil və zirehli texnikanın idarə edilməsində, şəxsi heyətin, habelə xüsusi yüklərin vaxtlı-vaxtında çatdırılmasında peşəkar sürücülərin rolu böyükdür. 17072 saylı hərbi hissənin avtomobil və zirehli texnika xidmətinin rəisi mayor Cəbrayıl Qədirov bu işdə üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirən hərbi qulluqçulardan biri kimi kiçik çavuş Qalib Şərifovun adını çəkdi.



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Q.Şərifov 1986-cı il aprelin 21-də Türkmənistan Respublikasının Krasnovodsk vilayətində anadan olub. 1993-cü ildə Qazax rayonu Şamoy Çobanov adına Ağköynək kənd tam orta məktəbinin 1-ci sinfinə daxil olub. 2002-2004-cü illərdə Vüqar Süleymanov adına Qazax Peşə liseyində traktorist-maşinist ixtisası üzrə təhsil alıb. 2004-2006-cı illərdə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində sürücü-atıcı vəzifəsində müddətli həqiqi hərbi xidmət keçib.

2012-ci il dekabr ayının 5-dən Daxili Qoşunların 16077 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi bölməsində sürücü-atıcı vəzifəsində müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 2014-cü ilin aprel ayından 17072 saylı hərbi hissənin xüsusi təyinatlı bölməsində xidmətini davam etdirən kiçik çavuş Q.Şərifov hazırda sürücü-atıcı vəzifəsindədir.

Xüsusi təyinatlı dəstə komandirinin müavini - qərargah rəisi mayor Rəşad Məmmədov qeyd etdi ki, xidməti vəzifələrini vicdanla, nizam-namələrin tələblərinə uyğun icra edən kiçik çavuş Q.Şərifov, həm hissə komandanlığının etimadını, həm də yoldaşlarının hörmətini qazanıb, nümunəvi hərbi qulluqçu kimi xarakterizə olunur.

Daxili Qoşunların hərbi qulluqçusu olduğu üçün qürur hissi keçirdiyini qeyd edən kiçik çavuş Q.Şərifova bundan sonrakı fəaliyyətində də uğurlar arzulayırıq.

**kapitan Sadıq Rəfiyev**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### ASELSAN 38.2 milyon dollarlıq satış müqaviləsi imzalayıb

Türkiyənin ASELSAN şirkəti xarici müştərisi ilə 38.2 milyon ABŞ dolları dəyərində satış müqaviləsi imzalayıb.

"Azeri Defence"in məlumatına görə, bu barədə ASELSAN şirkətinin İctimaiyyəti Məlumatlandırma Platformasına (KAP) təqdim etdiyi xəbərdə bildirilib.




Müqavilə çərçivəsində ASELSAN şirkəti adı açıqlanmayan ölkəyə komandanəzarət sistemi, tank əleyhinə raket buraxıcı qurğuları, o cümlədən, inersial naviqasiya sistemləri və atış yerini təsbit sistemləri tədarük edəcək.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı və 99713 saylı hərbi hissənin şəxsi heyəti **çavuş Quluzadə Elşən Qulu oğlunun** vəfatından kədərləndiyini bildirir və şəhidimizin ailəsinə dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların komandanlığı və Dayaq rabitə qovşağının şəxsi heyəti gizir Çingiz Məmmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16075 saylı hərbi hissənin şəxsi heyəti çavuş Təranə Əliyevaya **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q.Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000